Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Noyabr 2022

www.ereforms.gov.az
info@ereforms.gov.az

“

**Bütün bu işlərin də maliyyə mənbəyi Azərbaycan büdcəsidir.**

İndi dünyada müxtəlif yerlərdə gedən iqtisadi proseslər, çətinliklər, böhranlar onu göstərir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Belə ağır müharibədən çıxmış ölkə azad edilmiş torpaqlarda iki il ərzində genişmiqyaslı quruculuq işləri aparır. Biz bu iki il ərzində heç bir ölkədən, heç bir təşkilatdan, heç bir donordan bir manat belə yardım almamışıq.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 2022-ci il 08 noyabr tarixində Zəfər günü münasibətilə Şuşada təşkil olunan tədbirdə nitqindən**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

“Azərkosmos”a aid xidmət ixracı haqqında məlumat — səh. 18

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat — səh. 19

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat — səh. 21

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat — səh. 24

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2022-ci ilin yanvar-oktyabr ayları ərzində **34,7 milyard ABŞ dolları** dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə ixrac **2,4 milyard ABŞ dolları** təşkil etmişdir

2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın ümumi ixracı **34,7 milyard ABŞ dolları**, qeyri-neft sektoru üzrə ixrac **2,4 milyard ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2021-ci ilin on ayı ilə müqayisədə **16,2% artıb**.

2022-ci ilin yanvar-oktyabr ayları ərzində kimya sənayesi məhsullarının ixracı 2 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 25,7%, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 24,5%, çay ixracı isə 48,9% artmışdır.

Aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 672,1 milyon ABŞ dolları təşkil etmişdir. 2022-ci ilin yanvar-oktyabr ayları ərzində ixrac edilən meyvə-tərəvəz məhsulları aqrar məhsullar qrupunun 92,5%-ini təşkil etmişdir. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı əlavə dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 29% artmışdır.

2022-ci ilin yanvar-oktyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında karbamid (181,8 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (151,9 milyon ABŞ dolları) ikinci, qızıl (143 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2022-ci ilin yanvar-oktyabr ayları ərzində Rusiya Federasiyasına 687 milyon ABŞ dolları, Türkiyəyə 582,5 milyon ABŞ dolları, Gürcüstana 164,4 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 152,6 milyon ABŞ dolları və Qazaxıstana isə 75 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2022-ci ilin oktyabr ayı üzrə ixrac **5,2 milyard ABŞ dolları**, qeyri-neft sektoru üzrə ixrac isə **269,1 milyon ABŞ dolları** təşkil edib. 2022-ci ilin oktyabr ayı ərzində yeyinti məhsulları üzrə ixrac 73 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 17,5% artaraq 196,2 milyon ABŞ dollarına bərabər olub.

2022-ci ilin oktyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (84,8 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (70,9 milyon ABŞ dolları) ikinci və Gürcüstan (19,8 milyon ABŞ dolları) üçüncü olub.

2022-ci ilin oktyabr ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (28,5 milyon ABŞ dolları) birinci, karbamid (18,3 milyon ABŞ dolları) ikinci və qızıl (14,6 milyon ABŞ dolları) üçüncü olub.



# 2022-Cİ İLİN YANVAR-OKTYABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN OKTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN OKTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





# 2022-Cİ İLİN YANVAR-OKTYABR AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR SƏNAYE MƏHSULLARININ İXRACI

(2021-ci ilin müvafiq dövrü ilə müqayisə ilə, faizlə)

2022 İXRAC İCMALI noyabr

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**672,1 mln $**

2021/2022 **+11%**



2021/2022 **+6,9%**

**528 mln $**

**144,1 mln $**

2021/2022 **+29%**

# 2022-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN OKTYABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI noyabr



# 2022-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2022 | 2021 |
|---|---|---|
| Karbamid | 181,8 | 69,8 |
| Pambıq mahlıcı | 151,9 | 160,7 |
| Qızıl | 143 | 166,1 |
| Tomat (pomidor) | 137,1 | 130 |
| Metanol (metil spirti) | 112,9 | 60,2 |
| İlkin formalı polipropilen | 81,3 | 96,4 |
| Meşə fındığı | 80,3 | 75,6 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 76,9 | 80,4 |
| Polimerləşmədə ilkin formalı maddələr | 66,2 | 51,4 |

# 2022-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI noyabr

| | 2022 | 2021 |
|---|---|---|
| Elektrik enerjisi | 64,9 | 40,4 |
| Digər yağlar və məhsullar | 60,6 | 55,3 |
| Emal olunmamış alüminium ərintiləri | 56,1 | 29,8 |
| Xurma | 44,4 | 54,2 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 43,4 | 61,2 |
| Alüminium ərintilərindən plitələr | 42,3 | 45 |
| Albalı və gilas | 41,6 | 31,1 |
| PE İlkin formalı propilen sopolimerləri | 39,8 | 41 |
| Aşqarlanmamış alüminiumdan plitələr | 36,1 | 37,7 |

# 2022-Cİ İLİN OKTYABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI noyabr

| | 2022 | 2021 |
|---|---|---|
| Elektrik enerjisi | 28,5 | 2,6 |
| Karbamid | 18,3 | 19,9 |
| Qızıl | 14,6 | 7,8 |
| Xurma | 13,8 | 20,1 |
| Emal olunmamış aşgarlanmamış alüminium ərintiləri | 13,5 | 6,4 |
| Digər yağlar və məhsullar | 12,8 | 7,1 |
| Meşə fındığı | 9,6 | 19,7 |
| Metanol (metil spirti) | 8,9 | 11,5 |
| İlkin formalı polipropilen | 8,9 | 9,5 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2022-ci ilin yanvar-oktyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Baku Steel Company" MMC, "Almeyvə" MMC, Şirinov Elvin Valeh oğlu, "Rose Servis" MMC, "Mors Trading" MMC, "P-Aqro" MMC, "STP Alüminium" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərenerji" ATSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Geofizika və Geologiya İdarəsi", Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2022-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI noyabr




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** «AzərGold» QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

# 3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin yanvar-oktyabr aylarında "Azərkosmos" 21,7 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2022-ci ilin yanvar-oktyabr aylarında "Azərkosmos" tərəfindən dünyanın 40 ölkəsinə **21,7 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos"-un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **81 faizini** təşkil edib. 2022-ci ilin oktyabr ayında isə "Azərkosmos" dünyanın 36 ölkəsinə **2,4 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2022-ci ilin yanvar-oktyabr ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə 5,5 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 4,6 milyon ABŞ dolları ilə Fransa, 3,6 milyon ABŞ dolları ilə Lüksemburq, 1,9 milyon ABŞ dolları ilə BƏƏ və 1,2 milyon ABŞ dolları ilə Pakistan qərarlaşıb.Ə və 1,2 milyon ABŞ dolları ilə Pakistan qərarlaşıb.

# 2022-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA "AZƏRKOSMOS" 21,7 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 5,5 mln $ | Birləşmiş Krallıq |
| 4,6 mln $ | Fransa |
| 3,6 mln $ | Lüksemburq |
| 1,9 mln $ | BƏƏ |
| 1,2 mln $ | Pakistan |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 1,8 milyard manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2022-ci ilin oktyabr ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **149 milyon manat** təşkil edib. 2022-ci ilin yanvar-oktyabr aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **1,8 milyard manatlıq** əməliyyat aparıblar

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR

(milyon manatla)

2022 İXRAC İCMALI noyabr

| | 2020 | 2021* | 2022 |
|---|---|---|---|
| Yanvar | 85,2 | 72,2 | 204,7 |
| Fevral | 72,9 | 112,2 | 186,5 |
| Mart | 53,9 | 93,2 | 158,5 |
| Aprel | 19,7 | 64,1 | 136,6 |
| May | 24,3 | 81,3 | 184,1 |
| İyun | 23,7 | 89,7 | 203,6 |
| İyul | 23 | 96 | 213,6 |
| Avqust | 25,6 | 105,3 | 214,6 |
| Sentyabr | 25,9 | 124,3 | 155,5 |
| Oktyabr | 24,9 | 124,4 | 149 |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **379,1 mln** | **962,7 mln** | **1,8 mlrd** |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

# 5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT



## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 3 milyard 85 milyon ABŞ dolları təşkil etmişdir

2022-ci ilin yanvar-oktyabr aylarında Azexport.az portalına **393,6 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2022-ci ilin oktyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **37,3 milyon ABŞ dolları** təşkil edib. 2022-ci ilin oktyabr ayında Azexport.az portalına edilən ixrac sifarişlərinin pambıq yağı, kərə yağı, qurğuşun, tikinti kərpici, toyuq əti, xurma, fındıq, tütün, mühərrik yağı buğda unu və s. məhsullar üstünlük təşkil edib.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2022-ci ilin 31 oktyabr tarixinə kimi (70 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **3,085 milyard ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ
(milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI noyabr









# 2022-Cİ İLİN OKTYABR AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2022 İXRAC İCMALI noyabr



6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin noyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 20,1 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2022-ci ilin noyabr ayı ərzində **171 müraciət** daxil olub. Müvafiq dövr ərzində 362 ədəd sertifikat (131 ədəd mənşə, 7 ədəd baytarlıq, 222 ədəd fitosanitar, 2 ədəd CİTES) təqdim edilib.

2022-ci ilin noyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **20,1 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, pendir, kərə yağı, koka-kola, konfet, limonad, nar, alma, qarışıq şirələr, narşərab, nar çaxırı, dondurma məhsulu, xırdabuynuzlu heyvanların emal olunmamış.gönlərin kəsok parçaları, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, tibbi zəli, kompüter, kompüter avadanlığı, aqreqat. ehtiyyat hissələri, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, polad boru, pambıq mahlıcı, süd məhsulları, meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, Rusiya, Qazaxıstan, Özbəkistan, Türkiyə, ABŞ, Qırğızıstan, Niderland, İtaliya, İsrail, İran, Türkmənistan, Kanada, Belarus, Tacikistan, Tatarıstan üstünlük təşkil etmişdir.



# 2022-Cİ İLİN NOYABR AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)





# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR

(faizlə)



61,6%

Fitosanitar sertifikatı

36,1%

Mənşə sertifikatı

1,9%

Baytarlıq sertifikatı

0,6%

CİTES sertifikatı

İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN
"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat